Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**1 nömrəli əlavə**

## “Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxsin

## NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. “Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxs (bundan sonra – İnstitut) “Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 18 mart tarixli 235-VI FR nömrəli Fərmanına əsasən yaradılan və qida təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların aparılmasını, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrinin hazırlanmasını və aidiyyəti üzrə təqdim edilməsini, qida və yem məhsullarına dair digər beynəlxalq standartların onların istehsalçıları tərəfindən könüllü tətbiqinin təmin edilməsini, qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyət göstəriciləri üzrə tədqiqat xidmətlərinin göstərilməsini həyata keçirən Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) strukturuna daxil olmayan tabeliyindəki qurumdur.

1.2. İnstitut öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının “Publik hüquqi şəxslər haqqında” qanunlarını və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

1.3. İnstitut öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, digər hüquqivə fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İnstitutun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. İnstitut ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. İnstitut sahibkarlıq fəaliyyəti ilə yalnız həmin fəaliyyət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etdiyi hallarda məşğul ola bilər. İnstitutun fəaliyyəti nəticəsində əldə olunan vəsaitlər onun fəaliyyətinin təmin edilməsinə yönəldilir.

1.6. İnstitutun rəsmi adı aşağıdakı kimidir:

1.6.1. Azərbaycan dilində - Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs;

1.6.2. İngilis dilində - Nakhchivan Food Safety Institute public legal entity under the Food Safety Agency of the Nakhchivan Autonomous Republic.

1.7. İnstitut Naxçıvan şəhərində yerləşir.

## 2. İnstitutun fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. İnstitutun fəaliyyətinin əsas məqsədi insanların, həmçinin heyvanların həyat və sağlamlığının qorunması üçün qida təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etməkdən ibarətdir.

2.2. İnstitut aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.2.1. qida təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmaların və tədqiqatların aparılması;

2.2.2. malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartla, texniki reqlamentlə və digər normativ hüquqi aktlarla müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsinin həyata keçirilməsi;

2.2.3. qida təhlükəsizliyi sahəsində risk qiymətləndirilməsinin elmi əsaslarının formalaşdırılması və elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsinin həyata keçirilməsi;

2.2.4. elmi cəhətdən əsaslandırılmış və qida təhlükəsizliyinə dair mövcud beynəlxalq standartların, norma və qaydaların tələbləri nəzərə alınmaqla, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların (sanitariya-gigiyena, baytarlıq, fitosanitar norma və qaydalarının) və digər normativ hüquqi aktların layihələrinin işlənilib hazırlanması;

2.2.5. qida təhlükəsizliyinə dair beynəlxalq standartların qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən subyektlər tərəfindən könüllü tətbiq edilməsi ilə bağlı tövsiyələr hazırlanması, məsləhətlərin verilməsi, tələb olunan sənədlərin hazırlanması və təlimlərin keçirilməsi;

2.2.6. qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyi və qida məhsullarının minimum keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat (ölçmə) xidmətlərin göstərilməsi;

2.2.7. qida təhlükəsizliyi sahəsində mütəxəssislərin hazırlanması məqsədi ilə təlim və tədrislərin təşkili;

2.2.8. elmi-praktiki konfransların, simpoziumların, seminarların, yığıncaqların və görüşlərin təşkili;

2.2.9. qida təhlükəsizliyi sahəsində əhalinin məlumatlandırılması məqsədi ilə maarifləndirmə işlərinin həyata keçirilməsi;

2.2.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qida təhlükəsizliyi sahəsinin inkişafı ilə bağlı tədbirlər görülməsi.

## 3. İnstitutun vəzifələri

3.1. İnstitut bu Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. qida təhlükəsizliyi sahəsinin elmi əsaslarını işləyib hazırlayır və Agentliyə təkliflər verir;

3.1.2 hüquqi və fiziki şəxslər üçün qida təhlükəsizliyi göstəriciləri üzrə tədqiqat xidmətləri göstərir;

3.1.3. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və İnstitutun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin edir;

3.1.4. elmi cəhətdən əsaslandırılmış və qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların təhlükəsizliyinə dair mövcud beynəlxalq standartların, norma və qaydaların tələbləri nəzərə alınmaqla, qida təhlükəsizliyi sahəsində qanunvericilik aktlarını, o cümlədən texniki normativ hüquqi aktları (sanitariya-gigiyena, baytarlıq, fitosanitar norma və qaydalarını), inkişaf konsepsiyalarını və məqsədli proqramları işləyib

hazırlayır və Agentliyə təqdim edir, habelə onların həyata keçirilməsində iştirak edir;

3.1.5. qida təhlükəsizliyi sahəsində risk qiymətləndirilməsinin və risklərin idarə edilməsinin elmi əsaslarını işləyib hazırlayır və Agentliyə təkliflər verir;

3.1.6. risk qiymətləndirilməsi zamanı insanların, həmçinin heyvanların həyat və sağlamlığı üçün mövcud və ya gələcəkdə yarana biləcək təhlükələri araşdırır və həmin təhlükələrin qarşısının alınması istiqamətində Agentliyə təkliflər verir;

3.1.7. qida məhsullarının zənginləşdirilməsi (fortifikasiya olunması) haqqında qərarın verilməsi üçün Agentliyə elmi əsaslandırılmış təkliflər verir;

3.1.8. Nizamnaməsinə uyğun olaraq dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin qida təhlükəsizliyi sahəsi üzrə fəaliyyətini əlaqələndirir;

3.1.9. qida təhlükəsizliyinə dair beynəlxalq standartların tətbiq edilməsi üzrə məsləhətlər verir və təlimlər keçirir;

3.1.10. rasional fizioloji normaların, habelə qida təhlükəsizliyi baxımından heyvanların və bitkilərin sağlamlığına, habelə heyvanların yemlənməsində istifadə olunan yem məhsullarına dair texniki normativ hüquqi aktların hazırlanmasında iştirak edir;

3.1.11. qida məhsulları və onların təhlükəsizliyi sahəsində əhalinin, habelə qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən subyektlərin məlumatlandırılması məqsədi ilə məktəbəqədər və orta təhsil müəssisələrində və digər yerlərdə düzgün qidalanma, qida mədəniyyəti və s. məsələlərlə bağlı maarifləndirmə işlərini həyata keçirir;

3.1.12. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, qida təhlükəsizliyi sahəsində elmi-texniki nailiyyətlərin tətbiqinin təmin olunması, habelə qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən subyektlər tərəfindən qabaqcıl beynəlxalq idarəetmə sistemlərinin tətbiq edilməsi ilə bağlı təkliflər verir;

3.1.13. qida təhlükəsizliyi sahəsində elmi, texniki və praktiki məsləhət xidmətlərinin göstərilməsini həyata keçirir;

3.1.14. qida təhlükəsizliyi sahəsində laboratoriya sisteminin inkişafı ilə bağlı təkliflər verir;

3.1.15. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat (ölçmə) xidmətləri göstərir, habelə laboratoriyalararası müqayisəli və səriştəlilik

sınaqlarını təşkil edir;

3.1.16. tabeliyindəki akkreditasiya olunmuş laboratoriyalarda Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq götürülmüş nümunələrin vahid metodika əsasında qiymətləndirilməsini təmin edir, aşkarlanmış pozuntuların aradan qaldırılması üçün Agentliyə təkliflər verir;

3.1.17. qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən subyektlərdə qida təhlükəsizliyi sahəsində tədqiqatların aparılması ilə bağlı xidmətlərin göstərilməsini təşkil edir;

3.1.18. dövlət və kommersiya sirrinin qorunması, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.1.19. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir;

3.1.20. qida təhlükəsizliyi sahəsində peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir;

3.1.21. yüksəkixtisaslı kadrların qida təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırma və tədqiqat işlərinin aparmasına köməklik göstərir;

3.1.22. fəaliyyəti ilə bağlı arayış və hesabatlar hazırlayır, Agentliyə təqdim edir;

3.1.23. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;

3.1.24. İnstitutun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə Azərbaycan Respublikasının "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;

3.1.25. İnstituta ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.26. İnstitutun informasiya təminatını təşkil edir və onun təhlükəsizliyini təmin edir;

3.1.27. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görür;

3.1.28. qida təhlükəsizliyi sahəsində cinayət əlamətləri aşkar etdikdə aidiyyəti üzrə məlumat verir;

3.1.29. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

## 4. İnstitutun hüquqları

4.1. İnstitut öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. fəaliyyət istiqamətlərinə və vəzifələrinə uyğun olaraq, dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) almaq, təhlillər, ümumiləşdirmələr və müşahidələr aparmaq, rəylər vermək, təklif və arayışlar hazırlamaq;

4.1.2. fəaliyyət istiqamətləri üzrə təlimlər, seminarlar, elmi-praktiki konfrans və simpoziumlar keçirmək, habelə xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.3. fəaliyyət istiqamətləri üzrə analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.4. Agentliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və onlarda iştirak etmək, filial, nümayəndəlik və idarələr yaratmaq;

4.1.5. fəaliyyət istiqamətləri üzrə müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək;

4.1.6. müstəqil ekspert, mütəxəssis və məsləhətçiləri öz fəaliyyətinə cəlb etmək;

4.1.7. qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

4.1.8. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.10. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi ilə bağlı Agentliyə təkliflər vermək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. İnstitutun fəaliyyətinin idarə olunması

5.1. İnstitut öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

5.2. İnstitut kollegial icra orqanı olan İdarə Heyəti tərəfindən idarə edilir.

5.3. İdarə Heyəti İnstituta ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi 3 (üç) nəfərdən - Agentliyin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən, müavinindən və Agentliyin sədri tərəfindən təyin edilən digər üzvdən ibarətdir.

5.4. İdarə Heyətinin sədri müvəqqəti olaraq öz vəzifələrini icra etmədikdə və ya edə bilmədikdə, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavini, İdarə Heyəti sədrinin müavini olmadıqda isə İdarə Heyətinin digər üzvü icra edir.

5.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

5.5.1. İnstitutun fəaliyyətinə dair illik hesabatı, habelə illik maliyyə hesabatını və Agentliyin tələbi ilə rüblük və ya digər hesabatları hazırlayaraq Agentliyə təqdim edir;

5.5.2. İnstitutun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır, həmin layihələri Agentliyə təqdim edir, bu Nizamnamənin 3.1.4-cü və 4.1.7-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

5.5.3. İnstitutun strateji məqsəd və planlarını müəyyən edir;

5.5.4. İnstitutun fəaliyyətinə dair illik hesabatı, habelə illik maliyyə hesabatını və Agentliyin tələbi ilə rüblük və ya digər hesabatları hazırlayaraq Agentliyə təqdim edir;

5.5.5. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və Agentliyə təkliflər verir və sənədlər təqdim edir;

5.5.6. İnstitutun fəaliyyətini təşkil edir və ona nəzarət edir;

5.5.7. ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə edilməsini təmin edir;

5.5.8. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

5.5.9. Agentliklə razılaşdırmaqla, İnstitutun əməkhaqqı fondunu, işçilərin əməkhaqlarını təsdiq edir, İnstitutun əldə etdiyi vəsait (muxtar respublika büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirir;

5.5.10. fəaliyyətinə dair daxili qaydaları, habelə onun idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq edir;

5.5.11. İdarə Heyətinin və İnstitutun əməkdaşlarının fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının qayda və şərtlərini müəyyənləşdirir;

5.5.12. İnstitutun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin İnstitutun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə Agentliyin razılığı ilə qərar qəbul edir;

5.5.13. Agentliyin razılığı ilə İnstitutun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri İnstitutun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

5.5.14. aidiyyəti şəxslə dəyəri İnstitutun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

5.5.15. İnstitutun kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir;

5.5.16. İnstitutun göstərdiyi xidmətlərin və gördüyü işlərin qiymətləri ilə bağlı Agentliyə təkliflər verir;

5.5.17. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

5.5.18. cari və operativ məsələlər barədə Agentliyi məlumatlandırır;

5.5.19. İnstitutun maliyyə planlaşdırmasını və büdcəsini təsdiq edir;

5.5.20. İnstitutda daxili audit bölməsi yaradıldığı halda həmin bölmənin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir;

5.5.21. İnstitutun strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

5.5.22. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

5.6. İdarə Heyətinin sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin sədri və ya digər üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirəyə çıxarılmış məsələlərə dair qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında hər iştirakçı bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledici sayılır. Səsvermə zamanı iştirakçıların bitərəf qalmasına icazə verilmir.

5.6.1. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

5.6.2. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

5.6.3. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

5.7. İdarə Heyətinin sədri:

5.7.1. İnstitutun fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

5.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir;

5.7.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

5.7.4. öz təşəbbüsü, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

5.7.5. İnstitutun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.7.6. İnstitutun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

5.7.7. bu Nizamnamə ilə müəyyən olunmuş hallar istisna olmaqla, Agentliyin razılığı ilə İnstitutun təsərrüfat cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;

5.7.8. bu Nizamnamə ilə müəyyən olunmuş hallar istisna olmaqla İnstitutun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki qurumların (təsərrüfat cəmiyyətlərindən başqa) işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsinə dair qərarlar qəbul edir;

5.7.9. İnstitutun əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

5.7.10. özünün, İnstitutun struktur bölmələrinin (o cümlədən idarə, filial və nümayəndəliklərinin) və təsərrüfat cəmiyyətlərinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.7.11. Agentliyin razılığı ilə dəyəri Agentlik tərəfindən müəyyən ediləcək məbləğdə olan əqdlərin (mühüm əqdlərin) bağlanılması haqqında qərar qəbul edir və onların yerinə yetirilməsini təmin edir;

5.7.12. İnstitutun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

5.7.13. İnstitutun fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qrupları yaradır;

5.7.14. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür;

5.7.15. İnstitutda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

5.7.16. İnstitutda müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

5.7.17. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı konfrans, iclas, seminar və digər tədbirlərdə iştirak edir;

5.7.18. Agentliyin tapşırığı ilə konfrans, iclas, seminar və digər tədbirlərin keçirilməsini təşkil edir;

5.7.19. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində İnstitutun Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını Agentliklə razılaşdırmaqla təsdiq edir;

5.7.20. İnstitutun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

5.7.21. Agentliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

5.8. İdarə Heyətinin üzvü:

5.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edir;

5.8.2. İdarə Heyətinin iclasının gündəliyi və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olur;

5.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirir;

5.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verir;

5.8.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olur.

5.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 6. İnstitutun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Təsisçi adından İnstitutun fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Agentlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. İnstitutun inkişaf istiqamətlərini Agentlik müəyyən edir.

## 7. İnstitutun nizamnamə fondu, əmlakı və maliyyə-təsərrüfat fəaliyyəti

7.1. İnstitutun əmlakı nizamnamə fondundan, ona təsisçilər tərəfindən verilmiş digər əmlakdan, dövlət vəsaitlərindən, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

7.2. İnstitutun əmlakı onun balansında göstərilir.

7.3. İnstitutun nizamnamə fondunun məbləği 100 (yüz) manatdır.

7.4. İnstitutun illik maliyyə hesabatları və işçilərinin say həddi Agentlik tərəfindən təsdiq edilir.

7.5. İnstitut öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. İnstitut balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və

səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

7.6. İnstitut qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra İnstitutun, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir. İnstitutun əldə etdiyi vəsaitdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na uyğun olaraq Agentliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.

7.7. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 34.3-cü, "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 39.2-ci, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanunun 24.13-cü, 25.6-cı, 26.4-cü və 31.4-cü maddələrinə müvafiq olaraq İnstitut tərəfindən nəzarət tədbirləri məqsədilə həyata keçirilən xidmətlərin qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

## 8. Uçot və hesabat

8.1. İnstitut "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

8.2. İnstitut "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

8.3. İnstitut idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

8.4. İnstitut öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 9. İnstitutun yenidən təşkili və ləğv edilməsi

9.1. İnstitut Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən yenidən təşkil olunur və ya ləğv edilir.